ODLAR YURDU UNİVERSİTETİ

"Humanitar, Təhsil və Dillər" fakültəsi

"Psixologiya, Pedaqogika və Sosial fənlər" kafedrası

Bakalavriat səviyyəsinin 050112–Məktəbəqədər təhsil ixtisası üzrə

# TƏHSİL PROQRAMI




Bakı – 2020

**ODLAR YURDU UNİVERSİTETİ**

**Bakalavriat səviyyəsinin**

**050112 – Məktəbəqədər təhsil ixtisası üzrə**

# TƏHSİL PROQRAMI

*Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin F-38 nömrəli 21.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin 050112-Məktəbəqədər təhsil ixtisası üzrə Təhsil Proqramı əsasında hazırlanmış, Odlar Yurdu Universitetinin Elmi Şurasının 03.09.2020-ci il tarixli (protokol №1) iclasında təsdiq edilmişdir.*

**Bakalavriat səviyyəsinin 050112 – Məktəbəqədər təhsil**

**İxtisası üzrə**

# TƏHSİL PROQRAMI

## 1. İxtisasın pasportu

"Məktəbəqədər təhsil" ixtisası məktəbəqədər yaşlı uşaqların intelektual fiziki,mənəvi inkişafına xidmət edən ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesini əhatə edir. Nəzərə almaq lazımdır ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Məktəbəqədər təlim və tərbiyə ixtisası aşağıdakı məsələləri öyrənir:

- Uşaqların doğulduğu andan 6 yaşa qədər inkişafının qanunuyğunluqlarını və tərbiyəsinin əsas xüsusiyyətlərini;
- Məktəbəqədər yaşlı uşaqların fiziki, əqli, əxlaqi, əmək, estetik, ekoloji, hüquqi və şüurlu intizam tərbiyəsinin elmi əsaslarının məzmununu, prinsip və metodlarının xüsusiyyətlərini;
- Məktəbəqədər təhsilin nəzəri əsasları, məzmunu, prinsip və metodlarının təşkilini;
- Uşaq oyunu və əməyin mahiyyəti, məzmunu, elmi əsasları və inkişafının rolunu;
- Uşaqların fiziki və əqli qabiliyyətlətinin hərtərəfli inkişafına, şəxsiyyətin formalaşmasına yönəldilmiş rəhbərlik işinin prinsip və metodlarını;
- Uşaq oyuncaqlarının didaktik və estetik quruluşu, məzmunu və mahiyyətinin elmi əsaslarını;
- Uşaq bağçalarının məktəblərlə işindəki ardıcıllıq və varislik məsələlərinin elmi-metodiki istiqamətini;
- Uşaqların ailədə tərbiyəsinin elmi əsasları və ailədə tərbiyəedici şəraitin yaradılmasının spesifik xüsusiyyətlərini;
- Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramlarının tələblərinə uyğun pedaqoji prosesin təşkilinin metodoloji əsaslarını;
- Məktəbəqədər mərhələdə məktəbəqədər tərbiyə probleminin həllində mühüm əhəmiyyət kəsb edən kadrların elmi-pedaqoji, ideya-siyasi və professionallıq baxımında hazırlıq məsələlərini.

Məktəbəqədər təlim və tərbiyə ixtisasının əsas **məqsədi** uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbəhazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsili prosesinin təşkil edilməsini tələbələrə tədris etməkdir. Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərini əhatə etdiyinə görə erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Buna görə də, bu ixtisas istənilən dövr üçün aktualdır .

İxtisas aşağıdakı **vəzifələri** yerinə yetirir:

- uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi;
- uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılması;
- Valideynlərlə davamlı əlaqədə olmaq;

- Pedaqoji prinsiplərə riayət etmək;
- Fiziki qabiliyyətləri inkişaf etdirmək;
- Yüksək əxlaqi dəyərlərin və vətəndaşlıq hisslərin inkişafı;
- Özünüqiymətləndirmənin formalaşması;
- Obrazlı təfəkkürün,təxəyyülün və məntiqi təfəkkürün inkişafı.

Məktəbəqədər təlim və tərbiyə ixtisasını bitirən məzunlar məktəbəqədər təhsil müəssisələrində rəhbər (müdir) və tərbiyəçi vəzifələrində çalışa bilər. Əlbəttə ki, bu dövrdə onlara ailədən əlavə pedaqoji kadrların da kömək etməsi böyük əhəmiyyət daşıyır. Bu sahədə isə məktəbəqədər təlim və tərbiyə ixtisasında oxumuş, bu istiqamətdə biliklərini, bacarıqlarını inkişaf etdirmiş kadrların olması böyük köməklik göstərir. Məktəbəqədər təlim və tərbiyə müəssisələrində işləyən pedaqoji kadrlar universitetlərin pedaqoji fakültəsinin məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə təhsil alır və bu ixtisas üzrə məzun olduqdan sonra öz karyeralarına başlayırlar. Tərbiyəçi və ya müəllim işləyəcək məzunlar hər şeydən əvvəl yüksək intellektə sahib olmalı, gülərüz, mehriban, qayğıkeş və işinin peşəkarı olmalıdır. Uşaqları sevməli, onlara yüksək məhəbbətlə yanaşmalı, səbrli, təmkinli, çətin situasiyalardan asanlıqla çıxış yolunu tapmalıdır. Tərbiyəçi uşaqlarla birgə fəaliyyət göstərməlidir.

Bu ixtisası bitirən şəxslər rəhbər (müdir) və ya tərbiyəçi kimi aşağıdakı məktəbəqədər **təhsil** müəssisələrində **çalışa** bilər:

- körpələr evi
- körpələr evi-uşaq bağçası
- uşaq bağçası
- əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri
- məktəb uşaq bağçası.

Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə bitirirən məzunlar

- həm dövlət,

-həm də özəl bağçalarda işləyə bilər.

Bu ixtisas üzrə lazım olan bilik və bacarıqlar (kompetensiyalar)

-öyrətmək həvəsi;

-daim yenilikçi olmaq;

-uşaqların nə istədiklərini anlamaq;

-fikrini rahat və qısa zamanda çatdırmaq üçün səlis və lokanik nitq qabiliyyəti;

-bildiklərinin tatbiqini bacarmaq;

-azyaşlı uşaqlarla çalışma bacarığı;

-fərdi və komanda ilə işləmə bacarığı;

-pedaqoji və psixoloji biliklərin bacarığı.

## 2. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin "050112 - Məktəbəqədər təhsil" ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza) ali tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə. işədüzəlmə və təhsiliniartırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və "050112 - Məktəbəqədər təhsil" ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 3.Məzunun kompetensiyaları

3.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına (**UK-1**);
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına(**UK-2**);
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə(**UK-3**);
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyənetmə bacarıqlarına(**UK-4**);
- İş yerində İnformasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə(**UK-5**);
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə(**UK-6**);
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə(**UK-7**);
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə (**UK-8**);

- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına (**UK-9**);
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə (**UK-10**);;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına(**UK-11**);
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına(**UK-12**);

3.2. **Təhsil proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**

Fəaliyyət sahəsinə aid olan fənlərin əsas problemlərini, onların konkret tətbiq sahələrini üzrə bacarıqlara (**PK-1**);

İxtisasla bağlı anlayış və terminlərin mənasını bilmək və tətbiq etmə bacarığına(**PK-2**);

Qarşıya müəyyən vəzifələr qoymağı, onları həll etməkdə müvafiq metodları seçməyi və tətbiq etməyi bacarığına(**PK-3**);

Təlim məşğələlərində istifadə etmək üçün elmi-metodik və didaktik vəsait hazırlamağ bacarığına:

Qazanılmış biliklərə, bacarıq və vərdişlərə uyğun olaraq, təhsil sahələrində kompleks məsələlərin həllində iştirak etmə bacarığına(**PK-4**);

Məşğələlərlə bağlı bilikləri təqdim etmək və onları iş şəraitinə adaptasiya etmə bacarığına(**PK-5**);

İdeyaları və problemləri qiymətləndirmək üçün məlumatlardan istifadə edərək, çox sayda problem həll etmək bacarığına(**PK-6**);

Müxtəlif, çoxşaxəli və multikultural mühitlərdə səmərəli işləmə, fərqli fikir və perspektivlərə hörmət etmə və anlama, müxtəlif mədəniyyətləri və baxış nöqtələrini qiymətləndirərək emosional zəka və liderlik bacarıqları nümayiş etdirmək bacarığına(**PK-7**);

Məlumatlı, inandırıcı və ifadəli məqsədlər üçün danışıq və yazılı dil vasitəsi ilə ünsiyyət qurma bacarığı, eyni zamanda təsirli, məntiqli və aydın yazmaqla yanaşı əyani vasitələrdən, bədən dilindən, intonasiyadan və digər şifahi ünsürlərdən istifadə etməklə uşaqlarla, valideyinlərlə, kolleqaları ilə əməkdaşlıq və effektiv ünsiyyət bacarığına(**PK-8**);

## 4.Təhsil Proqramının strukturu

4.1.**"050112 "Məktəbəqədər təhsil"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS Krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | 30 |
| 1. | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2. | **Azərbaycan dilndə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3. | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4. | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssiəsi tərəfindən müəyyən edilir.İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavə oluna bilər) | |
| **4.1.** | **Fəlsəfə**<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir. | 3 |
| | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | |
| | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin | |

| | | |
|---|---|---|
| | bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |
| | **Məntiq**<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkildə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| | **Etika və estetika**<br>Bu fənndə etik və estetik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik və estetik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika, estetika və peşə etikası haqqında məlumat verilir. | |
| 4.2. | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | 3 |
| | **Sahibkarlığın əsasları və biznesə giriş**<br>Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi. Biznesin təşkilati-hüquqi formaları. GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti. Kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı. Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi. | |
| | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisa-tdır.Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya.Siyasi mədəniyyət.Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası.Beynəlxalq siyasətin qlobal problemləri . Dövlətin xarici siyasət fəaliyyəti. | |
| | **İxtisas fənləri** | 120 |
| 5. | **Pedaqogika**<br>Pedaqogika fənnin tədrisində tələbələrə pedaqogika elminin təşəkkülü və inkişaf tarixi haqqında məlumat verilir, təlim, tərbiyə, təhsil, inkişaf anlayışlarının mahiyyəti izah olunur. Pedaqogikanın mahiyyəti, əsasanlayışları, vəzifələri, tədqiqat metodları, əsas mənbələri və qolları, şəxsiyyət, şəxsiyyətin formalaşmasına təsir | 5 |

| | | |
|---|---|---|
| | göstərən əsas amillər, eyni zamanda təlimin üsulları, prinsipləri, təşkiliformaları haqqında məlumat verilir. Bununla yanaşı təlim prosesinin idraki və psixolojiəsasları, təlim prosesinin prinsipləri, metodları və təşkili formalarının, yeni təlim texnologiyalarının əsas mahiyyəti izah olunur, tərbiyə prosesinin xüsusiyyətlərinə aid müasir cəmiyyət quruculuğu ilə bağlı məlumatlar çatdırılır, məktəbdə metodik işlərin və məktəbşünaslığın pedaqoji əsasları təsvir edilir. | |
| 6. | **Psixologiya**<br>Psixologiya psixofizioloji, sosial-psixoloji fenomenlər və onların təbiəti, işləmə mexanizmləri, funksiyaları daxil olmaqla insanın psixi həyatının, davranışının meydana gəlməsi və inkişafının qanunauyğunluqları haqqında elm olub, psixi pros-esləri, psixi halları, psixi xassələri, bötüvlükdə psixi hadisələri öyrənən elm - sahəsidir. Psixologiyanın predmeti həm konkret şəxsin psixikası və psixi hadisələri, həm də qrup və kollektivlərdə müşahidə olunan psixi hadisələrdir . Psixologiya psixi proseslər, psixi vəziyyətlər və psixi xasslərin insanın davranışında təzahürlərinin öyrənilməsi vasitəsilə psixikaya nüfuz edir. Bu kursda psixologiyanın tarixi, psixikanın formalaşma mexnizmləri, fəaliyyətin psixologiyası, şəxsiyyətin psixologiyası, eləcə də temperament, qabiliyyət və xarakter, emosional-iradi xüsusiyyətlər kimi mövzular öyrədilir. | 5 |
| 7. | **Təhsildə İKT**<br>Bu fənn İKT vasitələrindən istifadənin müasir üsul və metodlarına; hesablama texnikası bazasında fəaliyyət göstərən multimediya texnologiyalarına, məlumatın daxil edilməsinə, toplanmasına, emalına, ötürülməsinə diqqət yetirir. Elektron tədris resursları və elektron lövhənin təlim prosesində İstifadə edilməsinə, innovasiyalann idarəedilməsinə, distant təhsil, videokonfransların təşkili, aparat, proqram vasitələri və internetdə axtarış sistemləri ilə işləməyi diqqətə çatdırır. | 5 |
| 8. | **Multikulturalizmə giriş.**<br>Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının multukulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | 3 |
| 9. | **Məktəbəqədər pedaqogika**<br>Bu fənn elmi-pedaqoji nəzəriyyələrə istinad edərək müasir dövrdə uşaqların tərbiyə və inkişafının mühim vəzifəsini, məqsədini və məzmununu əhatə edir. Mətəbəqədər yaş dövründə uşaqların fizioloji və psixoloji inkişafını əsas tutaraq tərbiyə prosesini pedaqoji qanunlar əsasında həyata keçirir. | 6 |
| 10. | **Sosial pedaqogika**<br>Bu fənn çərçivəsində gənc nəslin tərbiyəsi, uşaqların təlim-tərbiyə məsələləri,uşaqların tərbiyə, təhsil və təliminin başlıca məqsədləri, təhsilin məzmunu, qanunauyğunluqları və təşkilinin səmərəli yollarının müəyyənləşdirilməsi və s. kimi məsələlər sosial baxımdan öyrənilir. Bir sözlə pedaqogika sosial kontekstdən nəzərdən keçirilir. Sosial pedaqogika bir elm sahəsi kimi öz-özlüyündə sosial və pedaqoji hadisələri öyrənmir, onun fenomenolo-giyasını sosial-pedaqoji hadisələr təşkil edir. Bununla yanaşı bu fənn sosial pedaqogikanın nəzəri-metodoloji məsələlərini, kateqoriyalarını, qanunauyğunluq-larını, şəxsiyyət problemini, insanları əhatə edən sosial və təbii mühiti, orada baş verən dəyişikliklər və inkişafı və onların təsiri, şəxsiyyətin formalaşma prosesinin amillərini, təhsil və tərbiyənin şəxsiyyətin sosiallaşmasında rolunu, uşaqların sosial müdafiəsi, müxtəlif tədris və tərbiyə müəssisələrində ailə və uşaq kollektivlərinin sosial fəaliyyətinin nəzəriyyə və metodikasını əhatə edir. | 5 |
| 11. | **Uşaq psixologiyası**<br>Uşaq psixologiyası bu elmin yaranmasının inkişaf tarixini, əsas sahələrini, uşaq psixologiyanın tədqiqat prinsipləri və metodlarını, həmçinin uşaq psixologiyanın | 5 |

| | | | |
|---|---|---|---|
| | bölmələri, uşaq psixologiyanın digər elmlərlə qarşılıqlı əlaqəsi, psixi inkişafın qanunauyğunluqları , psixi inkişafın zəruri şərtləri, psixi inkişaf və ünsiyyət, ailədaxili və ailədənkənar ünsiyyət, pedaqoji ünsiyyət kimi məsələləri öyrənir. Bu elm daxilində psixi inkişaf və təlim, psixi inkişafla bağlı psixoloqların fikirləri, psixi inkişafın akselerasiyası, urbanizasiya ilə əlaqədar fərziyyələr, yaş böhranlarının təhlili nəzərdə tutulur.Eləcə də çağalıq dövrünün mərhələlər üzrə inkişafı, körpənin fiziki və psixi inkişafı, körpənin cisim və hadisələrlə ünsiyyəti, körpələrdə əşyavi və təsviri fəaliyyət, körpənin nitq inkişafı, körpəlik dövründə diqqətin və hafizənin inkişafı, körpəlik dövründə təfəkkürün inkişafı, körpəlik dövründə hisslərin inkişafı, körpəlik dövründə yaş böhranı kimi məsələlərin təhlili nəzərdə tutulur. Məktəbəqədər yaş dövrünün psixoloji xüsusiyyətləri,uşaqların fiziki inkişafı, uşaqlarda motivasiya sahəsinin formalaşması, məktəbəqədər yaş dövründə uşaq şəxsiyyətinin inkişafı, məktəbəqədər yaş dövründə hisslərin və iradənin inkişaf xüsusiyyətləri, məktəbəqədər yaş dövründə nitqin inkişaf xüsusiyyətləri, məktəbəqədər yaş dövründə diqqətin, hafizənin, təfəkkürün, təxəyyülün inkişaf xüsusiyyətləri, uşağın məktəb təliminə psixoloji hazırlığı, kiçik məktəblilərin psixoloji xüsusiyyətləri, psixi və fiziki inkişaf istiqamətləri kimi məsələlərin öyrənilməsi ön plana çəklir. | | |
| 12. | **Pedaqoji psixologiya**<br>Bu elm sahəsi təlim və tərbiyə prosesinin bu və ya digər mərhələsində insan şəxsiyyətinin necə dəyişdiyini şərh edir, lazım gəldikdə inkişafın düzgün istiqamətlənməsi üçün metodlar işləyib hazırlayır. Pedaqoji psixologiya tələbələrdə ümumi nəzəri dünyagörüşün formalaşdırılmasında, təlim-tərbiyə psixologiyası sahəsində tədqiqatlar aparılmasında, eləcə də praktik psixologiyaya marağın yaranmasında müstəsna əhəmiyyət kəsb edir. Pedaqoji psixologiya kursunun tədrisinin əsas məqsədi tələbələrdə psixi inkişafın ahəngdarlığını təmin edən əsas mexanizmlərin və təlim-tərbiyə prosesində şəxsiyyətinin formalaşmasının başlıca şərtlərini müəyyənləşdirməkdən, təhsil prosesinin onun subyektlərinə təsirinin mexanizmini aydınlaşdırmaqdan ibarətdir. | 5 | |
| 13. | **Azərbaycan dili**<br>Bu fənn müasir Azərbaycan dilinin fonetikasını. yazı, əlifba və qrafikasını, orfoqrafiyasını, orfoepiyasını, leksikologiyasının, semasiologiyasını, frazeologivasını, morfologiyasını, sintaksisini, Azərbaycan dilinə dair nəzəri biliklərə, düzgün oxu və yazı vərdişlərinin tətbiqi ilə bağlı məlumat verir. | 5 | |
| 14. | **Uşaq ədəbiyyatı**<br>Uşaq ədəbiyyatı fənnini başlıca məqsədi böyüməkdə olan nəslin etik və estetik tərbiyəsinə istiqamət vermək, milli və bəşəri ideyalara hörmət və sədaqət, vətənpərvərlik, humanizm, əməksevərlik, dostluq, yoldaşlıq, düzlük və doğruluq, özünə qarşı tələbkarlıq kimi mənəvi-estetik keyfiyyətlər aşılamaqdır.Uşaq ədəbiyyatına aid əsərlərin ideya və motivlərinin güclənməsi prinsipləri şərh edib mənimsəmək.Ən görkəmli uşaq ədiblərinin həyat və yaradıcılığını tədqiq etmək. Cəmiyyətdə sağlam bir şəxsiyyət kimi formalaşan uşağın psixoloji inkişafına təsir göstərəcək əsərlərin didaktik əhəmiyyətini müəyyənləşdirmək.Uşaq ədəbiyyatının janrlarını üzə çıxarmaq və onun nümayəndələrinin həyat və yaradıcılığını analiz etmək. | 5 | |
| 15. | **Uşaq anatomiyası, fiziologiyası və gigiyenası**.<br>Bu fənn uşaq anatomiyası və fiziologiyasının əsaslarını, gigiyenik tələblərini, uşaqların yaş xüsusiyyətlərini tədris prosesində nəzərə almağı, uşaqlarla davranmaq və gigiyenik tələblərə aid biliklər verir. | 5 | |
| 16. | **Məktəbəqədər təhsil müəssisələrində təsviri fəaliyyət və onun tədrisi metodikası**.<br>Bu fənn təsviri sənətin nəzəri əsaslarını, tədrisinin metod və vasitələrini, məktəbəqədər yaşlı uşaqlarda təsviri fəaliyyətə maraq yaratmaq və rəsm çəkmək | 5 | |

| | | |
|---|---|---|
| | bacarıqlarına yiyələnməyin pedaqoji əsaslarım, kağız, karton, plastilinlə işləməyi, müəyyən fiqurlar, güllər, bəzək əşyaları düzəltməyi, texnologiya fənninin tədrisi üçün müvafiq metod və vasitələrini əhatə edir. | |
| 17. | **Məktəbəqədər təhsil müəssisələrində musiqi və onun tədrisi metodikası.** Bu fənn musiqinin elementar nəzəriyyəsini, musiqinin öyrədilməsinin yol və vasitələrini, uşaq musiqi əsərlərinin növlərini fərqləndirməyi, təhlil etməyi, musiqinin tədrisi üçün müvafiq metod və vasitələri müəyyənləşdirir. | 5 |
| 18. | **Məktəbəqədər təhsil müəssisələrində məntiqi və riyazi təfəkkürün inkişafı metodikası.** Bu fənn sadə məntiqi və riyazi təfəkkürün nəzəri əsaslan və tədrisi metodikasım, analyışlann elmi əsaslarım, məzmununu, əsas anlayışlarım, onların öyrədilməsi ardıcıllığını, uşaqlarda sadə riyazi vərdişlərin formalaşdırılması yollarını əhatə edir | 5 |
| 19. | **Ətraf aləmlə tanışlığın metodikası.** Bu fənn uşaqların ətraf aləmlə, ictimai həyat hadisələri, canlı və cansız təbiətlə tanış edilməsinin nəzəri əsaslarını, məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı metodikasını, onun metodik və texnoloji əsaslarını, bu sahədə olan bacarıq və vərdişləri əhatə edir. | 5 |
| 20. | **Məktəbəqədər təhsil müssisələrində nitq inkişafı metodikası**. Bu fənn məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə işin istiqamətlərini, üsul və vasitələrini, məktəbəqədər yaşlı uşaqlara fikrini düzgün, lakonik və məntiqi ifadə etməyi öyrətməyin yol və metodlarını əhatə edir. | 5 |
| 21. | **Məktəbəqədər təhsil müəssələrində fiziki mədəniyyət**. Bu fənn fiziki mədəniyyətin nəzəri əsaslanandan və onun tədrisi üzrə işin metodikasından bəhs edir. | 5 |
| 22. | **Maktəbəqədər təhsil müəssisələrində əmək va onun təşkili metodikası.** Bu fənn əməyin təşkili və onun tədrisinin məzmunu, metod və vasitələrini izah edir, əməyin növləri ilə bağlı vərdişlərə yiyələnmə metodikasını əhatə edir | 5 |
| 23. | **Məktəb təliminə hazırlığın əsasları.** Bu fənn məktəbəqədər yaşlı uşaqların məktəb təliminə hazırlanmasının əsas istiqamətləri üzrə bilikləri tətbiq etməyi, yeni texnologiyalardan istifadə etməyi, müxtəlif istiqamətlər üzrə praktik iş növlərinin həyata keçirməyi, uşaqların məktəb təliminə hazırlanması işinin metodikasını, elmi-nəzəri və pedaqoji əsaslarını ötürür. | 5 |
| 24. | **İnklüziv təhsil** İnklüziv təhsil bir elm kimi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından hamı üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişafı prosesini öyrə-dir.Bu fənn təlim metodlarını bilərək təlimin diferensiallaşdırılması yollarını izah edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların adaptasiya çətinliklərini nəzərə alaraq sosial adaptasiyası,inteqrasiyası və sosial reabilitasiyası məsələlərini araşdırır | 5 |
| 25. | **Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi va ona rəhbərlik.** Bu fənn məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi, idarəetmənin ümumi əsasları, tətbiqi məsələləri işıqlandırılır, eyni zamanda idarəetmənin təşkilati-metodiki məsələləri sistemli şərh olunur. Liderlik və menecment təhlil edilir. | 5 |
| 26. | **Məktəbəqədər təhsilin inkişaf tarixi** Bu fənn məktəbəqədər təhsilin dünyada və Azərbaycanda inkişaf tarixindən bəhs edir. Məktəbəqədər təhsilin inkişafına təsir edən nəzəriyyələr, yanaşmalar və proqramlar haqqında geniş məlumat verir. | 5 |
| 27. | **Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və innovasiyalar** Bu fənn optimal pedaqoji sistemlər və texnologiyalar yaradaraq, insan təbiəti ilə təlim-tərbiyənin effektivliyi arasındakı münasibətləri araşdırır. Pedaqoji texnologiya- bütün təlim prosesi və biliklərin mənimsənilməsi, insan və texniki resurslar, onların qarşılıqlı təsiri nəzərə alınmaqla təhsildə daha effektiv nəticələrə | 5 |

| | | |
|---|---|---|
| | nail olmaq üçün tətbiq edilən sistematik planlaşdırma, fəaliyyət və qiymətləndirmə metodlarını, onların mahiyyət etibarilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemi kimi səciyyələndirilir. | |
| 28. | **Mülki müdafiə və ilkin tibbi yardım**<br>Bu fənn çərçivəsində tələbələr fövqəladə hallarda əhalinin müdafiəsinin əsas üsullarını, kollektiv mühafizə vasitələrini, ərazinin mühafizəsini, kollektiv və fərdi mühafizə vasitələrini öyrənirlər. Tələbələrə həkiməqədər təxirəsalınmaz yardım qaydaları öyrədilir. | 6 |
| | **Pedaqoji internatura** | 30 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | 60 |
| 29. | **Pediatriya və gigiyenanın əsasları**<br>Bu fənn uşaq orqanizminin anatomik və fizioloji xüsusiyyətləri, bədənin strukturu, bu sahədə elmi nəzəriyyə və praktikanın mövcud vəziyyəti, elmin əsas məqsədləri, vəzifələri, problemləri və valideynlər və işçi heyəti ilə işin əsas üsullarının müəyyənləşdirilməsi, habelə uşaqlarda yoluxucu xəstəliklərin qarşısının alınması, psixikanın inkişafının somatovegetativ və psixomotor mərhələlərinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, uşaqların uyğun olmayan davranışının xüsusiyyətlərini, sindromun əlamətlərini müəyyən edilməsi, nevropatiya və nevroz, xroniki xəstəliklər və allergik vəziyyətlər, uşaqların gün rejiminin məcburi komponentləri haqqında valideynlərlə qarşılıqlı əlaqənin qurulması yolları, davranış üçün gigiyena tələblərini başadüşmə yollarını, uşaqlarda əsas yoluxucu və digər xəstəliklərin qarşısını almaq üçün zəruri gigiyena və dezinfeksiya tədbirlərini həyata keçirilməsi və s. kimi məsələləri özündə ehtiva edir. | 3 |
| | **Tibbi biliklərin əsasları**<br>Tibbi biliklərin əsasları fənni insan orqanizminin orqan və sistemləri, onların əlaqəsi və qarşılıqlı əlaqəsi, həyat tərzinin somatik və psixoloji sağlamlığa təsiri haqqında nəzəri bilikləri birləşdirir, müxtəlif ekstremal və terminal vəziyyətlərdə, xəsarətlərdə, yoluxucu xəstəliklərdə ilk tibbi yardım sahəsində nəzəri bilikləri və praktik bacarıqları özündə birləşdirir. | |
| 30. | **Uşaq oyunları və səhnəciklər**<br>Bu fənn məktəbəqədər yaş dövründə oyunların və səhnəciklərin təşkilinin mahiyyətini, məqsədini və əsas vəzifələrini izah edir. Həmçinin uşaqlar üçün oyunlar və səhnəciklərin seçilmə sxemini tərtib edir, məktəbəqədər yaş dövrü üçün oyun və səhnəciklərə verilən pedaqoji tələbləri və nəzəriyyələri öyrənir. Bununla yanaşı uşaqlar üçün oyuncaqların və səhnəciklərin seçilməsinin pedaqoji xüsusiyyətləri qiymətləndirilir, oyunların və səhnəciklərin növləri və onlara verilən pedaqoji tələblər əsasında uşaqlar üçün uyğun növlərini xüsusiyyətləri müəyyənləşdirilir. | **5** |
| | **Cizgi filmləri və komikslər**<br>Bu fənn daxilində təhsil dramaturgiyası, cizgi filmləri və komikslərin nəzəri əsasları haqqında məlumatları müəyyən edilir, bayramların təşkili və teatrlaşma fəaliyyətinin üstünlüklərini göstərilir, məktəbəqədər yaş dövründə cizgi filmləri və komikslərin tərbiyəvi xüsusiyyətləri və ssenari qurmağın yollarınını aydınlaşdırır, cizgi filmləri və komikslər, dram nümunələrini hazırlanması, tətbiqi,cizgi filmlərinin ssenarisi yazılması, dram fəaliyyəti üçün mühitin yaradılmas və s. kimi fəaliyyəti planları müəyyən edilir. | |

| | | |
|---|---|---|
| 31. | **Etika və estetika**<br>Bu fənndə etik və estetik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika və peşə etikası haqqında məlumat verilir. | 5 |
| | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | |
| 32. | **Pedaqoji kadrların etik davranış qaydaları**<br>Bu fənn usta müəllim və tərbiyəçi olmağın, əsl pedaqoq kimi pedaqoji ustalığa necə yiyələnməyin yollarından, metod və vasitələrindən bəhs edir. Fənn müəllim və tərbiyəçinin pedaqoji ustalığının bir sıra xarakterik məsələlərinə diqqət yetirilməklə yanaşı, bu gün tələbə adını daşıyan, gələcəkdə müəllim, tərbiyəçi kimi fəaliyyət göstərəcək gənclərin bu peşənin sirlərinə yiyələnməsinin pedaqoji, psixoloji və texnoloji tərəflərinə aydınlıq gətirilir. Tələbələr müəllim və tərbiyəçinin pedaqoji ustalığı və onun mahiyyətini, müəllim və tərbiyəçinin hazırlığının başlıca mərhələləri və istiqamətlərini, müəllim şəxsiyyəti və pedaqoji ustalıqda onun yerini, müəllim-şagird, tərbiyəçi-uşaq ünsiyyəti, müəllim-şagird, tərbiyəçi-uşaq ünsiyyətinə təsir edən amillər, müəllim-şagird, tərbiyəçi-uşaq ünsiyyətinin formalaşmasının yolları və vasitələrini öyrənir; pedaqoji ustalıq və incəsənət, pedaqoji texnika və texnologiyalarla tanış olur. "Pedaqoji kadr və etik davranışlar" fənni gələcək tərbiyəçi-müəllimlərin pedaqoji səriştəliliyə, müəllim üçün vacib kompotensiyalara yiyələnmələrində əsas fənn kimi çıxış edir. | 5 |
| | **Uşaq sağlamlığının tibbi – bioloji və sosial əsasları**<br>Bu fənn uşaqların rejim vəziyyətinin planlaşdırılmasının xüsusiyyətlərini (yuma, geyinmə, yemək, yatmaq), gündəlik iş rejiminin nəzəri əsaslarını, uyğun olaraq yuyulma, geyinmə, yemək, yatmağın təşkili və aparılması üsulllarını, uşaq travmatizminin xüsusiyyətləri və onun qarşısının alınması yollarını,məktəbəqədər təhsil müəssisəsində əlverişli mühitin yardılması yollarını, ən çox rast gəlinən uşaqlıq xəstəlikləri və onların qarşısının alınmasını, psixoloji rifah və ya narahatlıq vəziyyətində uşağın davranışının xüsusiyyətlərini, uşaqların fiziki sağlamlığının və psixi rifahının vəziyyətinə pedaqoji nəzarətin əsaslarını, o cümlədən uşaq orqanizminin təhsil müəssisəsinin şəraitinə uyğunlaşma xüsusiyyətlərini özündə ehtiva edir. | |
| 33. | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>Verilən, informasiya və bilik anlayışları, onların xassələri, xarakteristikaları, Əlifbalar, sistemlər, dillər, say sistemləri, kodlaşdırma sistemləri. informasiyanın kodlaşdırılması, hesablama texnikasının təşəkkülü, inkişafı, fərdi kompyuterlərin texniki təminatı. əsas və periferiya qurğuları, informasiya proseslərinin avtomatlaşdırılması alqoritmləri, fərdi kompyuterlərin proqram təminatı. Əməliyyat sistemləri. Windows ƏS., Windows ƏS-nin standart proqramları, tətbiqi proqram təminatı. Ms Office paketi haqqında, mətn tipli informasiyaların emalı. Ms Word mətn redaktoru, kompyuter qrafikası. Qrafik redaktorlar, Ms Power Point qrafik redaktoru, ədəd tipli informasiyaların emalı. Ms Excel elektron cədvəli, verilənlər Bazası. Baza modelləri. VBİS-lər, informasiya sistemləri, Relyasion VBİS-lər. Ms Access VBİS, informasiyanın şəbəkə emalı. Kompüter şəbəkələri, Lokal şəbəkələr. Şəbəkə topologiyaları, şəbəkə arxitekturası. OSİ modeli. Protokollar, ünvanlaşma, qlobal informasiya infrastrukturu İnternet, informasiya təhlükəsizliyi. | 3 |

| | | |
|---|---|---|
| | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | |
| 34. | **AR Konstitusiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |
| | **İşgüzar ingilis dili**<br>İngilis dili beynalxalq dil olmağı ilə yanaşı, həmçinin əsas işgüzar dilidir. Bu baxımdan işgüzar ingilis dilinin yüksək səviyyədə bilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, işgüzar ingilis dili bacarıqlarının artırılması iş effektivliyini, biznes və karyera perspektivlərinin yüksəldilməsinə köməkilik edəcəkdir. Bu fənn vasitəsi ilə tələbələr şifahi ingilis dili üzrə işgüzar ünsiyyət bacarıqları və özünə inamı artırmaq, müzakirə və danışıqlar üçün dil bacarıqlarını inkişaf etdirmək, ingilis dilində təqdimatlar etmək, işgüzar yazışma qaydaları, habelə ingilis dilli ölkələrin biznes mədəniyyəti və protokol məsələlərini öyrənmək imkanına yiyələnəcəklər.<br>Xarici dilin tədrisi zamanı tələbələrdə dilin komponentlərinin(tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının(oxu,yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur.Tədris materialının ardıcıllığına gəldikdə demək lazımdır, ki burada məqsəd tələbələrlə şifahi nitq vərdişlərini mümkün qədər tez inkişaf etdirməkdən ibarətdir, yəni ilk növbədə dildə ən çox yayılmış hadisələri öyrənmək lazımdır. Bu fənnin tədrisində qrammatikaya da xüsusi yer verilir. Təlim prosesində tələbələrlə müstəqil çalışmaq bacarıq və vərdişlərini aşılamaq lazımdır. Fənnin əsas məqsədi tələbələri danışıq zamanı tərcümədə qarşıya çıxan problemlərlə tanış etmək və birbaşa ünsiyyətdir. Hər dərsdə yeni materiallar, psixologiya ixtisasına aid terminlər tələbələrə təqdim olunur, mətn,yeni sözlər, ifadələr və onların izahı izah olunur. Dərsin tədrisində məktəbəqədər təhsil ixtisasına aid terminlərin müzakirəsinə geniş yer verilir. | **5** |
| 35. | **Etnopsixologiya**<br>Etnopsixologiya fənni respubkikamızda bizim etnik-psixoloji keçmişimiz barədə, etnik milli hislər, adət və ənənələr, etnik stereotip və yönümlər, etnoslararası münasibətlər, etnik milli xarakterlər, etnosun davranış və rəftarınaonların təsiri kimi vacib problemləri araşdırır. Bu fənn tələbələrə hər ir mütəxəssistenik –psixoloji problemlərə dərindən bələd olmağa yönəltməklə millətlərarası münasibətlərdə yol verilmiş səhvləri bir daha təkrarlanmağa, özünün praktik fəaliyyətində ondan bəhrələnməyə imkan verir. Etnopsixologiya ilə bağlı təsəvvürlərin formalaşması.Bu kursda tələbələrin psixoloji yetkinliyini, inkişafını yaxşılaşdırmaq, etnopsixologiya sahəsində peşəkar bacarıqlar formalaşdırılması, xarici ölkələr ilə əməkdaşlıqda tolerantlığın yaradılması, etnopsixologiyanın əsasları, müxtəlif millətlərin və xalqların milli-psixoloji xüsusiyyətləri ilə tanışlıq, müxtəlif xalqların etnik-psixoloji xüsusiyyətləri və onların fərqli hadisələr zamanı təzahür edən davranış formaları öyrədilir. | **3** |

| | | |
|---|---|---|
| | **Tərbiyə işinin təşkili metodikası**<br>Tərbiyə işinin təşkili metodikası fənni pedaqogikanın ən mühüm istiqamətidir. Bu gün Azərbaycan Respublikasının məktəbəqədər təhsil, ümumtəhsil və ali məktəbləri qarşısında son dərəcə böyük, şərəfli vəzifələr durur. Bu fənn müasir gənclərimizə Azərbaycan mənəviyyatı, Azərbaycan mentaliteti, dili və ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, incəsənəti, habelə zəngin maddi və mənəvi sərvətlərimiz barəsində dərin və hərtərəfli biliklər verilməli, yetişən gənc nəsildə yüksək mədəniyyət, mənəviyyat, vətənpərvərlik hisslərinin formalaşdırılmasını aşılayır. Bu fənn təhsil-tərbiyə işinin qurulmasında vəhdətlik təşkil edir. Tərbiyə işinin təşkili metodikası fənni "Məktəbəqədər təlim və tərbiyə" ixtisasında oxuyan tələbələri təlim-tərbiyə işinin planlaşdırmaq, tərbiyəçi-müəllim olaraq uşaqlara müxtəlif məsləhətlər vermək, uşaqların seçimini dəstəkləməkdə istiqamət verir. Bu fənnin mənimsənilməsində əsas məqsəd tərbiyəçi-müəllimlərin düzgün metodları tətbiq etməklə düzgün şəxsiyyət yetişdirməkdir. Uşaqların tərbiyəsində bu metodlar (vizual, praktik və şifahi üsullar) vəhdət təşkil edir. Eyni zamanda məktəbəqədər yaşın hər hansı bir dövründə uşaqların inkişafı və tərbiyəsini stimullaşdırmağa imkan verəcək optimal proqram seçmək tərbiyəçi-müəllimlər və valideyinlər tərəfindən müəyyənləşdirilir. | |
| 36. | **Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı**<br>Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı fənni məktəbəqədər təhsil müəssisələrində uşaqların estetik inkişaf və yaradıcı bacarıqlarının mahiyyəti və məzmunu kimi məsələləri aydınlaşdırır. Estetik və yaradıcı inkişafın məqsədinin vacibliyi nəzərə çatdırılır.. Estetik inkişafın məzmununa estetik bilik, bacarıq, vərdiş, hiss, maraq və zövq daxildir. Uşaqların gözəllik haqqında anlayışları ətraf mühiti estetik cəhətdən dərk etmə prosesində yaranır. Uşaqların estetik və yaradıcı inkişafının əsas vəzifələri bu fənn üzrə tədris olunur. Estetik tərbiyə məqsədi ilə digər fənlərin də imkanlarından istifadə edilməlidir. Estetik inkişafın mühüm bir istiqaməti məişətdə, geyim və münasibətdə gözəllik ruhunda uşaqları tərbiyə etməkdir. Onlar məktəbəqədər müəssisədə, ailədə, şəxsi həyatda gözəllik qanunları ilə yaşamağa, hər yerdə estetik mühit yaratmağa çalışmalıdırlar: gözəl danışmalı, gözəl geyinməli, gözəl yeriməli, gözəl davranmalıdırlar. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı fənni "Məktəbəqədər təlim və tərbiyə" ixtisasında oxuyan tələbələri estetik tərbiyə işinin planlaşdırmaq, tərbiyəçi-müəllim olaraq uşaqlara müxtəlif məsləhətlər vermək, uşaqların seçimini dəstəkləməkdə istiqamət verir. Bu fənnin mənimsənilməsində əsas məqsəd -tələbələrə məktəbəqədər yaşlı uşaqlarla estetik və yaradıcı inkişaf ilə bağlı işlərin aparılması üzrə nəzəri və praktik bacarıq və vərdişlərin aşılanması yollarının öyrədilməsini təmin etməkdir. | 3 |
| | **Sadə riyazi təsəvvürlərin formalaşması kursunun nəzəri əsasları**<br>Sadə riyazi təsəvvürlərin formalaşdırılması fənni məktəbəqədər yaşlı uşaqlarda elementar riyazi təsəvvürlərin formalaşmasının müasir texnologiyalarını və inkişafını öyrənir. Dövlət təhsil standartının məktəbəqədər təhsil səviyyəsini nəzərə alaraq məktəbəqədər yaşlı uşaqların riyaziyyatın elementlərinin təlimi formalarını, vasitə, metod və məzmununun aktual sualları açılır. Əsas diqqət uşaqların elementar riyazi təsəvvürlərinin formalaşması və inkişafının oyun texnologiyalarının nəzərdən keçirilməsinə yönəldilir. Məktəbəqədər yaşlı uşaqların ədəd və miqdar təsəvvürlərinin, kəmiyyətlər, forma, fəza və zaman təsəvvürlərinin qavraması xüsusiyyətləri nəzərdən keçirilir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların elementar riyazi təsəvvürlərinin formalaşması üzrə bilavasitə uşaqların təhsil fəaliyyətinin təşkilinə qoyulan metodiki tələblər ətraflı araşdırılır. | |
| 37. | **Azərbaycan şifahi xalq ədəbiyyatı.**<br>Şifahi xalq ədəbiyyatı fənni mədəniyyətin və ədəbiyyatın daha dərin qatlarına nüfuz etmək, onun qaynaqlarını, mənəvi-əxlaqi, estetik dəyərlərini əxz etmək baxımından tədris prosesinə daxil edilir. Dili tədris edilən ölkənin şifahi xalq ədəbiyyatı həmin | 3 |

| | | |
|---|---|---|
| | ölkənin xalqlarının yazıya qədərki dövrdə yaratdığı və sonrakı mərhələlərdə inkişaf etdirdiyi bədii söz sənətinin üslub və janr xüsusiyyətlərini, yaradıcıllq ənənələrini, xalq ədəbiyyatının müxtəlif janrlarını, o cümlədən əmək və mərasim nəğmələrini, folklor nümunələrini, qəhramanlıq eposlarını, rəvayətləri, dastanları, poetik və sinkretik folklor nümunələrini, elacə də bunların məzmun, dil və üslub xüsusiyyətlərini öyrədir. Tələbələri ixtisas ölkəsinin ədəbi-tarixi prosesinin ilkin mərhələsinə aid yaradıcılıq nümunələri ilə yanaşı, onların yarandığı tarixi şəraitlə tanış etmək, eyni zamanda, öyrənilən ədəbiyyatın dünya xalqlarının ədəbiyyatında yeri və mövqeyi haqqında malumatlandırmaq da kursun əsas məqsədlərindəndir.<br>Xalq ədəbiyyatı nümunələrinin yazıya alınması prosesi Azərbaycanda XV-XVIII əsrləri əhatə etsə də, XIX əsrdən formalaşmağa başlamışdır. Azərbaycan folklorşünaslığının tarixi məhz bu əsrdən başlamış, təşəkkülü və inkişaf mərhələsi günümüzə qədər dinamik dəyişməkdədir. Bu sahədə böyük məktəb yaratmış S. Mumtaz, V. Xuluflu, H. Zeynallı, M. Təhmasib və başqalarının qoyduğu ənənəni müasir folklorşünaslar davam etdirməkdədirlər. | |
| | **Azərbaycanda məktəbəqədər təhsilin inkişaf tarixi**<br>Məktəbəqədər təhsilin inkişaf tarixi fənni təhsilin inkişafının müxtəlif dövrlərini əhatə edir. Bu fənn məktəbəqədər təhsil proqramları və texnologiyalarını, müxtəlif ölkələrin məktəbəqədər təhsil sistemində ümumi və fərqli problemlərini və inkişaf perspektivlərini analiz edir, məktəbəqədər təhsilin inkişafında mühüm əhəmiyyət kəsb edən nəzəriyyələri, yanaşmalari və proqramları müqayisə edir. Müxtəlif dövrlərdə yaşamış klassik pedaqoqların əsərlərində kiçik yaşlı uşaqların tərbiyəsi və təhsili məsələləri onun əsas obyektidir. Dünyanın müxtəlif ölkələrində məktəbəqədər təhsilin inkişafını və modernləşdirilməsinin əsas istiqamətləri də bu fənn tərəfindən öpyrənir. Müasir məktəbəqədər tərbiyə və təhsil nəzəriyyələrinin hazırlanmasında istifadə olunan metodoloji prinsipləri və Azərbaycanın və inkişaf etmiş ölkələrin məktəbəqədər təhsil tarixini müqayisə edir. | |
| 38. | **Defektologiya və loqopediyanın əsasları**<br>Defektologiya fiziki və əqli cəhətdən geri qalan insanlsrın fərdi xüsusiyyətləri təlim, tərbiyə prosesi onlarla aparılan işin pedaqoji və psixoloji əsaslarını öyrənən elmdir. Hər bir elmdə olduğu kmi defektologiya elminində özünə məxsus obyekti, predmeti, sahələri, vəzifəlri, tədqiqat metodları vardır. Defektologiya elmini obyektini psixi inkişafında əyintiləri olan (eşitmə, görmə, əqli cəhətdən geri qalma, nitq pozuntuları) insanlarla iş təşkil edir. Defektologiyanın əsas sahələrindən biridə loqopediyadır. Nitq qüsurlarının öyrənilməsi, qarşısının alınması və korreksiyası ilə məşğul olur. Loqopediya nitq qüsurları, xüsusi təlim və tərbiyə vasitəsilə onların qarşısının alınması, aşkar edilməsi və aradan qaldırılması metodları haqqında elmdir. Nitq pozuntularının korreksiyası zamanı psixoloji yanaşma böyul təsir görsədərək ümumi, xüsusi psixologiya və psixodiaqnostikayla sıx əlaqəsi var. Nitq pozuntuları tək və müxtəlif birləşmələrlə müşahidə olunur. Disfoniya, bradilaliya, taxilaliya, kəkələmə, dislaliya, rinolaliya, dizartriya, alaliya, afaziya, disleksiya, disqrafiya ilə məşqul olur. | |
| | **Məktəbəqədər uşaqların asudə mədəni vaxtının təşkili**<br>Bu fənn mədəni asudə vaxtın təşkili zamanı uşağın fiziki, psixoloji, əqli və sosial-iradi hazırlığ səviyyəsini öyrənir, uşaq bağçasında mədəni asudə vaxtın keçirilməs-inin mühüm məsələlərini araşdırır, uşaq bağçasında mədəni asudə vaxtın təşkilinin metod və vasitərinin gerçəkləşdirməsi yollarını ayadınlaşdırır. | |

| | | |
|---|---|---|
| 39. | **Tədbirlərin və şənliklərin təşkili**<br>Bu fənn müasir mədəniyyəti öyrənən məktəbəqədər uşaqlara bayram kimi çətin hadisənin xüsusiyyətlərini və mövcud bayram mədəniyyətinin xüsusiyyətlərini başa düşməyə kömək etmək, habelə bayramın inkişafı və həyata keçirilməsi üçün bayram haqqında vahid fikir formalaşdırmaq üçün zəruri olan sosial və mədəni layihələrin gerçəkləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu fənninin tələbələrinin qarşısında duran əsas vəzifələri sosial-mədəni hadisə səciyyələndirmək olar.Bu fənnin yönəltdiyi tapşırıqlar aktual olanı birləşdirməyə yönəldilmişdir və onun strukturunu, funksiyalarını öyrənməklə tədbirlərin və şənliklərin təşkili haqqında bilikləri, müxtəlif tarixi dövrlərdə bayram mədəniyyətinin formalaşmasının əsas mərhələləri ilə tanışlığı, bayram mədəniyyətinin təmsilində keyfiyyət dəyişikliklərinin təhlilini, mədəni inkişafın indiki mərhələsində bayramın xüsusiyyətlərinin müəyyən edilməsini, tədbirlərin və şənliklərin sosial- mədəni hadisələrin əlaqəsi haqqında təsəvvürlərin formalaşmasını gerçəkləşdirir. | |
| | **Ailə pedaqogikası**<br>Pedaqogikanın tərkib hissəsi olan "Ailə pedaqogikası"nın fənni ailə onun vəzifələri, əsas prinsipləri, ailədaxili münasibətlər, ailə tərbiyəssi və s. kimi problemləri araşdırır.Bununla yanaş bu fənn ailədə tərbiyə metodları haqqında müstəqil məlumatları sistemləşdirir, ailənin formalaşmasının nəzəri və praktik müddəalarını araşdırır. Bununla yanaşı bu fənn çərçivəsində ailə və ailədaxili münasibətlərin tənzimlənməsi yolları göstərilir, ailə problemlərinin fəlsəfi və hüquqi əsaslarını təhlil edilir, onları sistemləşdirir.. Müasir ailə, onun xüsusiyyətləri haqqında ümumi biliklərin sistemləşdirilməsi bu fənn tədqiqat obyektinə daxilidr. Ailədə tərbiyə işinin təşkili prinsipləri, onların təlim prosesinə tətbiqi, kamil şəxsiyyət və hərtərəfli insan, mədəni nəsil yetişdirmək işinin ən səmərəli yollarının tapılması fənnin kompotensiyalarına daxildir. | |
| 40. | **Kurikulumun əsasları**<br>Bu fənn ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi, fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi, təlim texnologiyaları-nın çevikliyi və interaktivliyini, nəticəyönümlü fənn kurrikulumlarının hazırlanıb tətbiq olunması, təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsini və s. öyrənir. Həmçinin şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdır-ılmasının təmin edilməsi də fənnin kompotensiyasına daxildir. | 4 |
| | **Məktəbəqədər təhsil müəsissələrində didaktika**<br>Məktəbəqədər təhsil müəsissələrində tədris edilən didaktika fənni ümumi didaktikanın bir qoludur. O, məktəbəqədər təhsilin məqsədinin nəzəri əsaslandırıl-masını ehtiva edir, onun məzmununu, təşkili formalarını, uşağın şəxsiyyətinin hərtərəfli inkişafını təmin edən və onu məktəbə hazırlayan üsul və vasitələri təqdim edir. | |
| 41. | **Məktəbəqədər yaşlı uşaqlara xarici dilin tədrisi metodikası**<br>Tədris metodalogiyası müəllimlərin tədris və öyrənmə prosesini öz tələbələri ilə yüksək effektiv etmək üçün istifadə etdikləri təcrübə və prinsiplər toplusuna aiddir. "Inqilis dilinin tədrisi metodikası" xarici dili yüksək elmi və peşəkər səviyyədə tədris edə bilən müəllim kadrlarının hazırlanmasına xidmət edir. Dilinin tədrisi metodikası" fənninin əsas məqsədi müasir şəraitdə dili ünsiyyət vasitəsi kimi tədris etmək üçün zəruri bilik, vərdiş və bacarıqlara malik olan mütəxəssislər hazırlamaqdır. Dilə mükəmməl yiyələnmək üçün həm şifahi, həm də yazılı nitq vərdişləri aşılanmalıdır. Tədris olunan hər bir movzunun mənimsənilməsində, tədris keyfiyyətinin yüksəldilməsində | |

| | | |
|---|---|---|
| | metodiki vəsaitlərdən istifadə bacarığı, həm nəzəri həm də praktik baxımından tələbələrin biliklərinin qiymətləndirməsi əsas götürülür. | 4 |
| | **Məktəbəqədər yaşlı uşaqların hüquqlarının qorunması**<br>Məktəbəqədər yaşlı uşaqların hüquqlarının qorunması fənni uşağı müstəqil hüquq subyekti elan edir. Amma uşaq hüquqlarının həyata keçirilməsinə yalnız insan hüquqları ilə bağlı qanunların qəbulu və onların həyata keçirilməsini təmin edən mexanizmlərin yaradılması ilə nail olmaq olmaz.Bütün cəmiyyətimizin, böyüklərin və uşaqların, hər bir insanın ictimai şüurunun inkişafının vacibliyini dərk eolunmalı, uşağın öz hüquq və vəzifələri olan müstəqil bir şəxs kimi tanınmalıdır. Bu fənn çərçivəsində əsas məqsəd Məktəbəqədər təhsil müəssisələrinin işçilərinin vəzifəsi uşaqların şüuruna "Uşaq Hüquqları haqqında Konvensiya"nı əlçatan formada çatdırmaqdır. Bununla yanaşı uşaqları onların yaşına uyğun formada insan hüquqlarının müdafiəsi üçün əsas sənədlərlə tanış edilməsi, mənsubiyyətindən asılı olmayaraq insanlara hörmət və dözümlülüyü inkişaf etdirilməsi,sosial mənşəyi, irqi və milliyyəti,dil, din, cins, yaş, şəxsi və davranış cəhətlərindən asılı olmayaraq onların bərabərhüquqlu cəmiyyət üzv olması, özünəhörmətin formalaşmasının inkişaf etdirilməsi, hüquq və azadlıqları haqqında məlumatlılıq, məsuliyyət hissi,başqalarının ləyaqətinə və şəxsi hüquqlarına hörməti inkişaf etdirmək, sosial norma və davranış qaydalarının uyğun şəkildə şərh edilməsi məslələri bu fənnin kompotensiyalarına daxildir. | |
| 42. | **Sağlamlıq imkanı məhdud uşaqların psixologiyası**<br>Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyası kursunun tədrisi "Təhsildə sosial psixoloji xidmət" və "Məktəbəqədər təlim və tərbiyə" ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu kursda psixi inkişafı pozulmuş uşaqların ümumi səciyyəsi, inkişafda geri qalmanın xüsusiyyətləri, eşitmə funksiyası pozulmuş uşaqların psixoloji xüsusiyyətlərinə diqqət yetirilir. Həmçinin, görmə funksiyası pozulmuş uşaqların psixoloji xüsusiyyətləri, nitq pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri, emosional-iradi pozuntulara malik olan uşaqların psixoloji xüsusittətləri, davranış pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri və təlimdə çətinliklərlə qarşılaşan uşaqların inkişafının xüsusiyyətləri öyrənilir. Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyasının digər elmlərlə əlaqəsi, inkişaf tarixi, əsas bölmələri, tədqiqat prinsipləri, müayinənin əsas prinsipləri, əqli cəhətdən geriləmənin psixoloji xüsusiyyətləri, psixi cəhətdən ləngiməni, eşitmə pozulmasının səbəbləri, görmə pozulmasının səbəbləri, serebral iflicin xüsusiyyətləri, nitq pozulması, erkən uşaq autizmi, minimal beyin diffuziyası, kar-kor-lal uşaqların təlimi, psixi inkişafın kompensasiyası, müayinələrin əsas məqsəd və növləri, psixoloji yardım xidmətinin əsas məqsədi kimi məsələlər təhlil olunaraq müvafiq biliklər tələbələrə ötürülür.Fənnin tədrisində əsas məqsəd tələbələrə Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyasının vəzifələrini, metodlarını, prinsiplərini, özünəməxsus xüsusiyyətlərini və mühüm aspektlərini aşılamaq, onlarda fənn haqqında geniş təsəvvür yaratmaqdan ibarətdir. Tələbələrdə Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyasının rolu haqqında düzgün təsəvvür yaratmaq, elmi-psixoloji və digər tətbiqi məsələlərin həllinə maraq oyatmaq, habelə müəyyən bacarıq və vərdişləri aşılayaraq inkişaf etdirməkdən ibarətdir. | 5 |
| | **Tərbiyəçi müəllimin peşə ustalığının əsasları**<br>Bu fənn tərbiyəçi-müəllim peşəsi, müəllimin cəmiyyətdə rolu və vəzifələri haqqında təqdimatlar edir. Tərbiyəçi-müəllim şəxsiyyəti və pedaqoji ustalıqda onun yerini izah edərək, müəllimin peşəsinin professioqramı hazırlayır Tərbiyəçi-müəllimin peşə keyfiyyətlərini əks etdirən layihələr hazırlayır, pedaqoji texnika və texnologiyaların tətəbiqi fəaliyyəti zamanı əsas prinsipləri, o cümlədən pedaqoji əməkdaşlığın, pedaqoji ustalığın xüsusiyyətlərini araşdırır. | |

| | |
|---|---|
| Pedaqoji internatura | 30 |
| CƏMİ | 240 |

## 1. Tədris və öyrənmə

1.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

1.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

1.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

1.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;

- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

**Qeyd:** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilən və (və ya) dəyişdirilə bilər.*

1.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqlarının gücləndirilməsinə yetirilməlidir.

1.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 2. Qiymətləndirmə

2.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

2.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

2.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

2.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmam və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

**Qeyd:** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilən və (və ya) dəyişdirilə bilər.*

2.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

2.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

2.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 2.Proqramın və hər bir fənnin təlim nəticələri

2.8. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

2.9. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

2.10. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclanna cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 3. İnfrastruktur və kadr potensialı

3.1. "050112 "Məktəbəqədər təhsil" ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi- tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalanna, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

3.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 4.Təcrübə

4.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

4.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də

universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

4.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fomalaşdırılmalıdır.

4.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

4.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

4.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 5. Məşğulluq və Ömürboyu təhsil

5.1. “050112 “Məktəbəqədər təhsil” ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında,

yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə məktəbəqədər təhsil müəsissələrində, özəl və digər qurumlarda fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə, həmçinin

agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində də çalışa bilərlər.

5.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

5.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

**Tədrisin təşkili və yeni təlim texnologiyaları üzrə prorektor:** **dos.Q.A.Qafarov**

**Tədris və metodiki işlər departamentinin rəhbəri:** **dos.İ.U.Rəhimov**

**Psixologiya, pedaqogika və sosial fənlər kafedrasının müdiri:** **prof. R.V.Cabbarov**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi tərəfində Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən edilmişdir. Aşağıdakı cədvəllərdə Təhsil Proqramlarının (bax cədvəl1) və fənnlər üzrə təlimin nəticələri (cədvəl 2 və 3) hər bir üzrə ayrı-ayrılıqda sadalanmışdır.

| **Təhsil Proqramının təlim nəticələri (PTN) Cədvəl 1** |
|---|
| **PTN 1.** İnkişaf etmiş kreativ və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| **PTN 2.** Məktəbəqədər təhsil sahəsində informasiyanın qəbulu, saxlanılması, emal edilməsi, axtanşı və istifadəsi zamanı müasir informasiya texnologiyalarından istifadə etmək; pedaqoji mənbələrin və məlumat bazalarının idarəolunması sahəsində müvafiq proqramlardan istifadə bacarıqlarını formalaşdırmaq; pedaqoji tədqiqat zamanı əldə olunmuş məlumatın statistik təhlilini edə bilmək. |
| **PTN 3.**Təlim-tərbiyə prosesinin mexanizmlərini, pedaqoji prosesin təbiətini, texnoloji əsaslarını, yaşla bağlı inkişaf xüsusiyyətlərini, inkişafın fizioloji əsasları, ali sinir fəaliyyətinin strukturu, sensor sistemin fiziologiyası və onların funksiyaları, uşaq anotomiyası, fiziologiyası və gigeniyası üzrə nəzəri bilikləri insanın gündəlik həyatını, üşüncə prosesini və fəaliyyətini təhlil etmək üçün tətbiq etmək. |
| **PTN 4.**Məktəbəqədər uşaqlarla işləmək vərdişlərini inkişaf etdirmək; psixoloji mexanizmlərin dərki sayəsində tədqiqatlar aparmaqq üçün müxtəlif statistik təhlillərdən istifadə etmək; mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqaməti dövlətin apardığı siyasətini təhlil etmək.. |
| **PTN 5.** Məktəbəqədər təhsil müəsillərində təsiviri fəaliyyətə maraq yaratmaq, rəsm çəkmə fəlaiyyətinə yiyələnmənin pedaqoji əsaslarının müəyyən etmək və müəyyən bacarıqlara sahib olmağı bacarmaq, musiqinin elementar nəzəriyyəsini, musiqinin öyrəilməsinin yol və vasitələrini üzrə tətbiqi bilik və bacarıqlar əldə etmək, ətraf aləmlə tanılşlığın metodikasını əldə etmək, onun metodik və texnoloji əsaslarını bilmək, bu sahədə olan bacarıq və vərdişlərə sahib olmaq. |
| **PTN 6.** Öyrənmə və inkişaf üzrə, səmərəli tədris üsulları, təhsil siyasəti və təcrübəsini qiymətləndirmək üzrə müxtəlif nəzəri biliklər əldə etmək; tədrisin və təhsil sisteminin sosial xüsusiyyətləri, xarici mühitin öyrənmə prosesinə təsiri yollarını başa düşmək və bu bilikləri tələbə yeni mühitə, qaydalara, həmçinin düşüncələrində baş verən dəyiçikliklərə adaptasiya prosesini təhlil edərkən istifadə etmək, nitqin lakonik və məntiqi ifadə etməyi yol və vasitələrinə sahib olmaq, uşaqların məktəb təliminə hazırlığı üçün zəruri olan biliklərə, metdodik vasitələrə və vərdişlərə yiyələnmək, bu sahədə prktik iş növlərini həyata keçirmə bacarığına sahibolma. |
| **PTN 7.** Ayrı-ayrı pedaqoji bilik üzrə məktəblər/cərəyanlar və onların məşğul olduqları problemlər haqqında müfəssəl bilik əldə etmək; bu məktəbləri/cərəyanları müqayisəli şəkildə təhlil edə bilmək; təlim və tərbiyənin tədqiqi baxımından bu məktəblərin/cərəyanların tənqidi təhlilini vermək; məktəbəqər təhsil sahəsində müasir dövrdə hansı araşdırma istiqamətlərinin (və nə üçün) prioritet təşkil etməli olduğu ilə bağlı şəxsi mülahizə yürüdə bilmək. |
| **PTN 8.** Uşağın psixikasının inkişaf dinamikasını təhglil etmək,, diqqətdən kənarda qalmış və təcrid olunma təhlükəsi yaşayan şəxslərə xüsusi qayğı göstərilməsi yollarını şərh etmək, inkulziv təhsilə ehtiyacları olanların təlim ehtiyaclarının ödənilməsi yollarını göstərtmək, fiziki mədəniyyətin formalaşması istiqamətlərini və yaranana zəruri vərdişlərin formalşdırlması istiqamətlərini təhlil etmək, uşağın psixopedaqoji inkişafı üzrə insanın psixiki inkişafının hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını təhlil etmək; insan inkişafı üzrə mövcud nəzəriyyələrə istinad edərək fərdin müxtəlif yaş dövrlərində təzahür edən davranış və təfəkkür inkişafını izah etmək. |
| **PTN 9.** İnsanlarla onların xarici mühiti arasında olan qarşılıqlı münasibətlər, insanların təlim və tərbiyə prosesinə təsir edən sosial amillər və şəxsiyyətlərarası münasibətlər haqqında bilik və tətbiqi bacarıqlar əldə etmək; fərdin düşüncələrinə, hisslərinə və davranışlarına təsir edən sosial situasiyaları təhlil etmək; şəxsiyyət daxili və şəxsiyyətlərarası münasibətlər haqqında biliklərə malik olmaq. |
| **PTN 10.** Uşaq psixologiyasının inkişaf qanunauyğunluqları haqqında təsəvvürləri, bu elmin yaranmasının inkişaf tarixini, əsas sahələrini, uşaq psixologiyanın tədqiqat prinsipləri və metodlarını, psixi |

| |
|---|
| inkişafın qanunauyğunluqları, psixi inkişafın zəruri şərtləri, psixi inkişaf və ünsiyyət, ailədaxili və .ailədənkənar ünsiyyət, pedaqoji ünsiyyət kimi məsələlərinin təhlilini aparmaq bacaraığına sahib olmaq. |
| **PTN 11**. Uşaq ədəbiyyatında əka olununmuş pedaqoji fikirlərin təhlini aparmaq, milli və bəşəri ideyalara hörmət və sədaqət, vətənpərvərlik, humanizm, əməksevərlik, dostluq, yoldaşlıq, düzlük və doğruluq, özünə qarşı tələbkarlıq kimi mənəvi-estetik keyfiyyətləri aşılamaq, ədəbiyyata aid əsərlərin ideya və motivlərinin güclənməsi prinsipləri şərh edib mənimsəmək və uşaq ədiblərinin həyat və yaradıcılığını tədqiq etmək bacarığına malik olmaq, məntiqi və riyazi təfəkkürün nəzəri əsalarını və tədris metodikasını bilmək, estetik inkişafın mexanizmlərini və onu şərh etmək bacarığına malik olmaq. |
| **PTN 12.** Məktəbəqədər təhsilin inkişaf tarixinin əsas istiqamətlərini şərh etmək, mövcud olan nəzəriyyələr və yanaşmalar haqqında bilik və tətbiqi bacarıqları təhlil etmək, tibbi biliklərin əsasları, orqan və sistemləri, onların əlaqəsi və qarşılıqlı əlaqəsi, həyat tərzinin somatik və psixoloji sağlamlığa təsiri haqqında nəzəri bilikləri təcrübəyə tətbiq etmək, ilk tibbi yardım sahəsində nəzəri bilikləri və praktik bacarıqlarına malik olmaq, müəllim və tərbiyəçinin pedaqoji ustalığı və onun mahiyyəti, müəllim və tərbiyəçinin hazırlığının başlıca mərhələləri və istiqamətləri, müəllim şəxsiyyəti və pedaqoji ustalıqda onun yeri, tərbiyəçi-uşaq ünsiyyətinə təsir edən amillər və s. kimi məslələri şərh etmək qabiliyyətinə malik olmaq, mədəni asudə vaxtın təşkili zamanı uşağın fiziki, psixoloji, əqli və sosial-iradi hazırlığ səviyyəsinin öyrənilməsi əsasında formalşaman bacarıqları tətbiq etmək imkanına malik olmaq. |
| **PTN 13**. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı fənni məktəbəqədər təhsil müəssisələrində uşaqların estetik inkişaf və yaradıcı bacarıqlarının mahiyyəti və məzmunu kimi məsələləriin şərh edilməsi, estetik və yaradıcı inkişafın məqsədinin vacibliyi nəzərə almaqla təhsil dramaturgiyası, cizgi filmləri və komikslərin nəzəri əsasları haqqında məlumatları təhlil etmək, bayramların təşkili və teatrlaşma fəaliyyətininə dair bacarıqların formalşdırılması,cizgi filmləri və komikslərin tərbiyəvi xüsusiyyətləri və ssenari qurmağın yollarınını şərh etmək, cizgi filmləri və komikslər, dram nümunələrini hazırlanması, tətbiqi imkanlarına malik olmaq. |
| **PTN 14.** Fiziki və əqli cəhətdən geri qalan insanlsrın fərdi xüsusiyyətlərinin təlim, tərbiyə prosesində öyrənilməsi və təhlili bacarıqlarına, onlarla aparılan işin pedaqoji və psixoloji müəyyən etmək qabiliyyətinə, asudə vaxtın təşkili zamanı uşağın fiziki, psixoloji, əqli və sosial-iradi hazırlığ səviyyəsinin təhlini aparmaq, uşaq bağçasında mədəni asudə vaxtın keçirilməsinin mühüm məsələlərini bilmək, görmə funksiyası pozulmuş uşaqların psixoloji xüsusiyyətləri, nitq pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri, emosional-iradi pozuntulara malik olan uşaqların psixoloji xüsusiyyətləri, davranış pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri və təlimdə çətinliklərlə qarşılaşan uşaqların inkişafının xüsusiyyətlərini bilmək və onun əsasında praktik vərdişlərin inkişaf etdirlməsinə malik olmaq. |

**050112 –Məktəbəqədər təhsil ixtisası üzrə FTN**

**Əsas fənlər**

| Azərbaycan tarixi (FTN) |
|---|
| **FTN 1.** Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarındanbiri olmasını müəyyən etməyi bacarır. |
| **FTN 2.** Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| **FTN 3.** Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| **FTN 4.** Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| **FTN 5.** Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| **FTN 6.** Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |

| |
|---|
| **FTN 7.** Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |
| **Xarici dildə işgüzar və akademik kommunikasiya (FTN)** |
| **FTN 1**. Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| **FTN 2**. Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| **FTN 3**. Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| **FTN 4**. Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara |
| yiyələnmək. |
| **FTN 5**. İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar |
| **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (FTN)** |
| **FTN 1**. Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2**. Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3.** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunİkativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4**. Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinİn önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5.** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6.** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7.** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |
| **Təhsildə informasiya –kommunikasiya texnologiyaları İKT (FTN)** |
| **FTN 1.** Təhsildə informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| **FTN 2**. Təhsildə informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| **FTN 3.** İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin |
| informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| **FTN 4**. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| **FTN 5**. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarım qiymətləndirir |
| **FTN 6**. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| **FTN 7**. Proqramlaşdırma bacarığına yiyələnir. |
| **FTN 8**. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| **FTN 9**. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| **FTN 10**. Təhsildə informasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |

| Uşaq ədəbiyyatı (FTN) |
|---|
| **FTN 1**. Öyrənilən dövrdə uşaq ədəbiyyatının mərhələlərini nəzəri cəhətlərdən təhlil etmək. |
| **FTN 2**. Əsərlərin bədii dəyərini və onun tərbiyəvi əhəmiyyətini analiz etmək. |
| **FTN 3.** Hər hansı sənətkarın yaradıcılıq xüsusiyyətlərini, milli mənəvi dəyərləri təhlil etmək. |
| **FTN 4**. Bədii əsərləri müqayisəli üsulla ideya və məzmun xüsusiyyətlərini analiz etmək. |
| **FTN 5**. Bədii əsərlər əsasında ssenari və kiçik səhnəciklər qurmağı bacarmaq. |
| **Məktəbəqədər təhsilin inkişaf tarixi (FTN)** |
| **FTN 1.** Məktəbəqədər təhsilin inkişaf tarixini dövrlər üzrə təhlil etməyi bacarır. |
| **FTN 2.** Dünya ölkələrində məktəbəqədər təhsil sistemlərinin yaranması və inkişaf tarixinin sturukturunu izah etməyi bacarır. |
| **FTN 3.** Məktəbəqədər təhsil sisteminin xüsusiyyətlərini, konsepsiyalarını və modellərini təhlil etməyi bacarır. |
| **FTN 4.** Məktəbəqədər təhsil proqramları və texnologiyalarını, müxtəlif ölkələrin məktəbəqədər təhsil sistemində ümumi və fərqli problemlərini və inkişaf perspektivlərini analiz etməyi bacarır. |
| **FTN 5.** Məktəbəqədər təhsilin inkişafına təsir edən nəzəriyyələr, yanaşmalar və proqramları müqayisə etməyi bacarır. |
| **FTN 6.** Müxtəlif dövrlərdə yaşamış klassik pedaqoqların əsərlərində kiçik yaşlı uşaqların tərbiyəsi və təhsili məsələlərinin qoyuluşunu bacarır. |
| **FTN 7.** Dünyanın müxtəlif ölkələrində məktəbəqədər təhsilin inkişafını və modernləşdirilməsini izah etməyi bacarır. |
| **FTN 8.** Müasir məktəbəqədər tərbiyə və təhsil nəzəriyyələrinin hazırlanmasında istifadə olunan metodoloji müddəaları təqdim etməyi bacarır. |
| **FTN 9.** Azərbaycanın və inkişaf etmiş ölkələrin məktəbəqədər təhsil tarixini müqayisə etməyi bacarır. |
| **Mülki müdafiə və ilkin tibbi yardım (FTN)** |
| **FTN 1.** Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FFI-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ- hüquqi sənədləri bilmək; |
| **FTN 2**. Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yollan, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| **FTN 3.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| **FTN 4.** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək. |
| **FTN 6**. FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |
| **Uşaq anotomiyası və fiziologiyasının əsasları (FTN)** |

| |
|---|
| **FTN 1.** Tələbə uşaq orqanizminin, onun hüceyrə, toxuma, orqan və orqanlar sistemi haqqında bilir və izah edir. |
| **FTN 2**. Tələbə sinir sisteminin quruluşunu, onun fiziologiyasını və inkişaf mərhələlərini fərqləndirməyi bacarır. |
| **FTN 3**. Tələbə uşağın dayaq-hərəkət sistemi haqqında biliyə malikdir və izah etməyi bacarı |
| **FTN 4.** Tələbə qanın tərkibi, ürək, qan- damar sistemi haqqında biliyə malikdir və tətbiq etməyi bacarır |
| **FTN 5**. Tələbə tənəffüs və həzm sistemini izah etməyi bacarır. |
| **FTN 6**.Tələbə insan orqanizminin çoxalma və inkişafını təhlil etməyi bilir. |
| **Azərbaycan dili (FTN)** |
| **FTN 1.** Danışıq səslərinin növlərini müəyyənləşdirmək |
| **FNN 2**. Sözləri hecalara düzgün bölmək |
| **FTN 3**. Sözlərin leksik-semantik xüsusiyyətlərini və növlərini müəyyənləşdirmək |
| **FTN 4**. Frazeoloji birləşmələin əsas xüsusiyyətlərini izah etmək |
| **FTN 5**. Qrammatik kateqoriyaların xüsusiyyətlərinə görə nitq hissələrini fərqləndirmək |
| **FTN 6.** Nitq hissələrini düzğün təsnif etmək |
| **FTN 7**. Mürəkkəb adları orfoqrafik cəhətdən düzgün yazmaq |
| **FTN 8**. Sintaktik vahidlərin oxşar və fərqli cəhətlərini fərqləndirmək |
| **FTN 9**. Köməkçi nitq hissələrinin dilimizdə rolunun nədən ibarət olduğunu anlayır və yazıda düzgün tətbiq etmək |
| **FTN 10**. Mənimsənilmiş biliklər əsasında ismi birləşmələrin növlərini müəyyənləşdirmək |
| **FTN 11**. Predikativ mərkəzin xarakterinə görə sadə cümlənin növlərini fərqləndirmək |
| **FTN 12.** Cümlə üzvlərin iştirakına görə cümləni təsnif etmək |
| **FTN 13.** Mənimsənilmiş biliklər əsasında budaq cümlələrin növlərini müəyyənləşdirmək |
| **FTN 14**. Yazıda durğu işarələrindən düzgün istifadə etmək |
| **FTN 15**. Özgə nitqi və onun verilməsi üsullarını bilmək və nitqdə tətbiq etmək |
| **Mülki müdafiə və ilkin tibbi yardım ( FTN)** |
| **FTN 1.** Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FFl-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ- hüquqi sənədləri bilmək. |
| **FTN 2.** Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yollan, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək. |
| **FTN 3.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| **FTN 4.** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək. |
| **Pedaqogika ( FTN)** |
| **FTN 1.** Pedaqogikanın nəzəri əsaslarını, pedaqoji prosesin qanunauyğunluqlarını və yeni pedaqoji tex-nologiyaları müqayisə edərək tətbiq etməyi bacarır. |

| |
|---|
| **FTN 2.** Pedaqoji prosesin mahiyyətini, qanunauyğunluqlarını, prinsiplərini, məzmunu, metodlarını, vasitələrini, texnologiyalarını, təşkili formalarını ixtisasına uyğun olaraq sintez etməyi bacarır. |
| **FTN 3.** Pedaqogikanın nəzəri və praktik əsaslarını, idarəetmənin forma və metodlarını müqayisə və tətbiq etməyi bacarır. |
| **FTN 4.** Şəxsiyyətin inkişafına və formalaşmasına təsir edən amilləri müqayisə, təhlil və izah etməyi bacarır. |
| **FTN 5**. Təlimin və tərbiyənin təşkilində səmərəli texnologiyaları vəziyyətə uyğun müəyyən etməyi bacarır. |
| **FTN 6.** Pedaqoji prosesi təşkil etmək, təlim və tərbiyənin nəzəriyyə və texnologiyalarını müəyyən etməyi və praktik tətbiq etməyi bacarır. |
| **FTN 7.** Pedaqogikanın nəzəri və praktik əsaslarını, idarəetmənin forma və metodlarını müqayisə və tətbiq etməyi bacarır. |
| **Multikulturalizm (FTN)** |
| **FTN 1.** Multikulturalizm fənninin mahiyyətini və əhəmiyyətini öyrənir. |
| **FTN 2.** Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələrini təhlil etməyi bacarır. |
| **FTN 3.** Multikulturalizmin sosial-iqtisadi inkişafa təsirlərini təhlil etməyi bacarır. |
| **FTN 4.** Multikulturalizmin xarici siyasətə təsirlərini təhlil etməyi bacarır. |
| **FTN 5.** Multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etməyi bacarmaq |
| **Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və innovasiyalar (FTN)** |
| **FTN 1.** Pedaqoji texnologiyalar və innovasiyaların nəzəri və tətbiqi əhəmiyyətini dərk edir, yeni pedaqoji texnologiyaların stuktur və funksional komponentlərini təqdim etməyi bacarır. |
| **FTN 2.** Məktəbəqədər təhsildə yeni pedaqoji texnologiyalar və innovasiyaların mahiyyət və məzmununu izah etməyi bacarır. |
| **FTN 3.** Yeni təlim texnologiyalarının təsnifatını, tətbiqi prinsiplərini, fəal və interaktiv təlim texnologiyalarının məktəbəqədər təhsildə tətbiqi yollarını izah etməyi bacarır. |
| **FTN 4.** Məktəbəqədər təhsildə yeni təlim texnologiyaları və innovasiyaları haqqında nəzəri bilikləri praktik bacarıqlarla əlaqələndirməyi bacarır. |
| **FTN 5.**Yeni pedaqoji texnologiyalar və innovasiyaların tətbiqində uşaqların yaş xüsusiyyətlərini nəzərə alır və praktik fəaliyyətində onları tətbiq etməyi bacarır. |
| **FTN 6.** Məktəbəqədər təhsil müəssisələrində yeni pedaqoji texnologiyaların və innovasiyaların tətbiqi ilə olan pedaqoji prosesin idarə olunması yollarını bacarır. |
| **Ətraf aləmlə tanışlığın metodikası (FTN)** |
| **FTN 1.** Ətraf aləmlə tanışlığın nəzəri və praktik əsaslarını izah etməyi bacarır. |
| **FTN 2**. Uşaqların ətraf aləmlə, ictimai həyat hadisələri, canlı və cansız təbiətlə tanış edilməsinin nəzəri əsaslarını və praktik həlli yollarını təhlil etməyi bacarır. |
| **FTN 3**.Uşaqların əhatə edən sosial və təbii mühit, orada baş verən dəyişikliklər və inkişaf proseslərini yaş və bilik səviyyələrinə müvafiq şəkildə öyrətmək üçün metod və formalar seçməyi bacarır. |
| **FTN 4**. Müxtəlif yaş qruplarına uyğun məşğələlər tərtib etməyi bacarır. |
| **FTN 5**. Müxtəlif yaş qruplarına uyğun guşələrin modellərini qurmağı bacarır. |
| **FTN 6.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların milli-adət ənənələr, bayram və mərasimlərlə tanış edilməsi üçün ssenarilər tərtib edtməyi bacarır. |
| **FTN 7**. Ətraf aləmlə tanışlığın nəzəri və praktik əsaslarını izah etməyi bacarır. |
| **Psixologiya (FTN)** |
| **FTN 1.Psixologiyanın predmeti, psixikanın filogenezdə inkişaf istiqamətləri, psixi inkiasın təkamülü, psixologiyanın digər elmlər sistemində yeri, inkişaf tarixi, tədqiqat metodlarını haqqında tətbiqi biliklərər yiyəlnirər, onların tətbiqnin həyata keçirilməsini bacarır.** |
| **FTN 2.Psixologiya elminin digər elmlərlə əlaqələrini başa düşərək interdissiplinar yanaşmalara üstünlük verir, psixi hadisələrin təzahürləri, fəaliyyətin psixoloji məsələləri, tələbat və motivlərin psixoloji** |

| |
|---|
| problemlərinin nzəzəri və praktik əsaslarını şərh etməyi bilir. |
| **FTN 3.** Psixoloji fikrin inkişafını təhlil edib müqayisə edə bilir, hisslərin psixologiyasını, ünsiyyət psixologiyasının əsas məsələlərini, şəxsiyyətin formalaşma mexanizminin psixoloji məsələlərini prakatik yönümdə şərh etməyi bacarır. |
| **FTN 5.**Psixologiya sahəsində tədqiqat üsulları haqqında biliklər əldə edir, insanın fərdi-psixoloji xüsusiyyətləri-temperament, xarakter, qabiiyyətlər, emosional-iradi proseslərin praktik şərhini bacarır və müasir psixologiyanın müxtəlif istiqamətli aktual problemlərini bildirir |
| **FTN 6.** Psixi hadisələrin bioloji əsaslarını, davranışa təsir edən amillər sistemini,inkişaf və ona töhvə verən proseslər sahəsində biliklərə malikdir, onları sistemləşdirməyi bacarır. |
| **Məktəbəqədər təhsil müəsissələrində fiziki mədəniyyət (FTN)** |
| **FTN 1.** Fiziki mədəniyyətin nəzəri əsaslarını və onun tədrisi metodikasını təhlil etməyi bacarır. |
| **FTN 2.** Fiziki mədəniyyətin tədrisi üçün müvafiq metod və vasitələri müəyyənləşdirməyi bacarır |
| **FTN 3.** Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi üzrə əsas komponentləri, anlayışları, fizioloji əsasları haqqında təqdimatlar etməyi bacarır. |
| **FTN 4.** Sağlamlaşdırıcı, təlimedici, tərbiyəedici vəzifələri nəzzərə alaraq qruplar üzrə məşğələlər tərtib etməyi bacarır. |
| **FTN 5.** Düzgün gün rejimini tərtib etmək üçün səmərəli qidalanma, mədəni gigyenik adət və vərdişlərin formalaşması, su, hava, günəş vannasının qəbulu və uğun gimnastika və hərəkətli oyunlar seçməyi bacarır. |
| **FTN 6.** Uşaqların inkişaf xüsusiyyətlərini nəzərə alaraq müxtəlif oyunların tətbiqi metodikasindan istifadə etməyi bacarır. |
| **Məktəb təliminə hazırlığın əsasları (FTN)** |
| **FTN 1.** Məktəbəqədər yaşlı uşaqlarda oxumaq həvəsinin, təlim motivlərinin formalaşdırılması, məktəbə müsbət emosional münasibətin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə adaptasiya olunmasının elmi–nəzəri və pedaqoji əsaslarını təhlil etməyi bacarır. |
| **FTN 2.** Məktəbəqədər yaşlı uşaqların onları əhatə edən sosial və təbii mühit, orada baş verən dəyişikliklər və inkişaf proseslərini yaş və bilik səviyyələrinə müvafiq şəkildə öyrətməyin strategiyasını qurmağı bacarır. |
| **FTN 3.** Uşaqların məktəb təliminə hazırlanması işinin metodikasına, bu sahədə olan yeni pedaqoji texnologiyalara, məktəb təliminə hazırlığın məzmunu üzrə pedaqoji fəaliyyətinin praktik bacarıq və vərdişlərini nümayiş etdirməyi bacarır. |
| **FTN 4.** Məktəbəqədər təhsilin kurikulumunda nəzərdə tutulan istiqamətlər üzrə əldə etdiyi bilikləri təcrübədə istifadə etmək üçün elmi – pedaqoji və metodik təhlillər aparır, yenilikləri yaradıcılıqla təcrübəyə tətbiq etməyi bacarır. |
| **FTN 5.** Uşaqların məktəb təliminə hazırlanmasının əsas istiqamətləri üzrə bilikləri və yeni texnologiyaları müxtəlif istiqamətlər üzrə praktik iş qurmağı bacarır. |
| **FTN 6.** Təlim strategiyalarından, uşaq nailiyyətlərinin qiymətləndirmə mexanizmlərindən, müasir təlim texnologiyalarından, metodlarından istifadə edilməsi bacarıqlarını yeni pedaqoji təfəkkürə, öyrənmə və tədris etmə vərdişlərinə uyğun sintez etməyi bacarır. |
| **Məktəbəqədər təhsil müəssisələrində əmək və onun təşkili metodikası (FTN)** |
| **FTN 1.** Əmək və onun tədrisinin məzmunu, metod və vasitələrini izah etməyi bacarır. |
| **FTN 2.** Gün rejiminin təşkili zamanı özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi növlərini tətbiq etməyi bacarır. |
| **FTN 3.** Özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi ilə bağlı məşğələlərin təşkili metodikasını müəyyən etməyi bacarır. |
